Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu "Layihələrin təhlili şöbəsinin mütəxəssisi" vəzifəsi üzrə vakansiya elan edir:

Əsas öhdəliklər:

· Fondun kredit məhsulları üzrə daxil olan müraciətlərin (sifarişlərin) təqdim edilməli olan sənədlər toplusuna uyğunluğunu yoxlamaq;

· Təqdim edilən investisiya layihələrinin (biznes planların) Fondun müəyyən etdiyi minimal tələblərə uyğunluğunu yoxlamaq;

· Kredit müraciətləri üzrə maliyyə hesabatlarının təhlilini aparmaq, o cümlədən biznesin ilkin monitorinq prosesində iştirak etməklə təqdim edilmiş məlumatların yoxlanılmasını həyata keçirmək;

· Əldə olunmuş məlumatlar əsasında borcalanın mövcud ödəmə qabiliyyətini qiymətləndirmək, maliyyə vəziyyətində dəyişiklikləri təhlil etmək, hazırlanmış proqnoz hesabatları yoxlamaq, zərurət olduqda əldə edilən məlumatlar əsasında proqnoz hesabatlar tərtib etmək;

· Fondun müəyyən etdiyi qiymətləndirmə meyarlarına uyğun olaraq layihələri qiymətləndirmək;

· Görülmüş işlərlə bağlı hesabatlar hazırlamaq;

· Fonda daxil olan və icrası şöbəyə tapşırılmış müraciətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada baxmaq.

Namizədə dair tələblər:

· Maliyyə, İqtisadiyyat və ya İdarəetmə sahəsində ali təhsil;

· İqtisadi və maliyyə biliklərinin olması, maliyyə hesabatlarını təhlil etmə bacarıqları;

· Əldə olunmuş məlumatlar əsasında borcalanın mövcud ödəmə qabiliyyətinin qiymətləndirilməsi, maliyyə vəziyyətində dəyişikliklərin izlənməsi, proqnoz hesabatların hazırlanması bacarığı;

· MS Office (xüsusi ilə Excel) proqramlarından istifadə bacarığı;

· Komandada işləmək, kommunikasiya və təqdimetmə bacarığı;

· Operativ və düzgün qərar vermək bacarığı;

· Təşəbbüskarlıq, diqqətlilik və məsuliyyətlilik;

· ACCA F3 sertifikatının olması arzuolunandır.

Tələb olunan göstəricilərə malik olan namizədlər öz CV-lərini mövzu hissəsində vəzifə adını qeyd etməklə hr@edf.gov.az e-mail ünvanına göndərə bilərlər.